# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 82** **Bakı şəhəri, 15 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2004-cü il 4 fevral tarixli 7 nömrəli, "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" 2014-cü il 26 fevral tarixli 63 nömrəli, "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 24 avqust tarixli 317 nömrəli və "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"nın və "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli 7 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 114, № 11, maddə 969; 2005, № 1, maddə 51; 2008, № 8, maddə 787; 2017, № 2, maddə 325, № 6, maddə 1225; 2018, № 7 (II kitab), maddə 1639; 2019, № 6, maddə 1147; 2021, № 6 (IV kitab), maddə 667) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından, preambuladan və 1-ci hissədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna" sözləri çıxarılsın;

1.2. həmin Qərarla təsdiq edilmiş "Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası"nın adından, 1-ci (hər iki halda) və 2-ci hissələrindən, 4-cü hissəsinin dördüncü abzasından (hər iki halda) ismin müvafiq hallarında ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1001, № 10, maddə 1295; 2016, № 2 (II kitab), maddə 355, № 9, maddə 1585; 2018, № 9, maddə 1943, № 10, maddə 2170, № 11, maddə 2462; 2019, № 3, maddə 518, № 8, maddə 1460; 2020, № 4, maddə 477, № 12 (V kitab), maddə 1613; 2021, № 11, maddə 1259; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 fevral tarixli 48 nömrəli və 26 fevral tarixli 64 nömrəli qərarları) ilə təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nın 9.1-ci bəndinin dördüncü cümləsində və "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 12.1-ci bəndinin dördüncü cümləsində "I və ya II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454; 2018, № 4, maddə 813, № 5, maddə 1127; 2019, № 3, maddə 518; 2020, № 4, maddə 477, № 11, maddə 1381; 2021, № 11, maddə 1258; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 fevral tarixli 48 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın 7.2-ci bəndinin üçüncü cümləsində "I və ya II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları"nın 7.4-cü bəndində "sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin.

**5.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***